**UOT821.512.161**

# POSTMODERN TÜRK ROMANININ TƏŞƏKKÜLÜ

**Aytən RƏŞİDLİ***

***Açar sözlər:*** *postmodernizm, roman, türk ədəbiyyatı*

XX əsrin I yarısında insan mərkəzli dünya yaratmağa çalışan, insanı dünyanın ən dəyərli varlığı hesab edən modernizm, kapitalizm cəmiyyətində uzun ömür sürə bilmədi. Çünki daha çox Qərbdə özünü göstərən modernizm hər iki dünya müharibəsinin mərkəzi olan ərazidə - insan dəyərlərinin məhv olduğu və günü gündən irəliləyən kapitalist cəmiyyətdə inkişaf edə bilməzdi. Dar coğrafi sahədə təşəkkül tapmış modernizm tez bir zamanda yerini tənqidi və maarifçi yönü ilə özünü göstərən, prülarist düşüncəyə sahib postmodernizmə verdi. Türk ədəbiyyatında isə bu proses bir qədər fərqli şəkildə özünü göstərmişdir. Belə ki, modernizm türk ədəbiyyatında XX əsrin ikinci yarısında yarandı və postmodernizmlə paralel inkişaf etdi. Elə bu səbəbdən də çağdaş dövr yazıçılarının bəzilərinin yaradıcılığında eyni zamanda həm modernist, həm də postmodernist əsərlər vardır. Yıldız Ecevit, BernaMoran kimi ədəbiyyat nəzəriyyəçilərinin elmi əsərlərindən aydın olur ki, türk ədəbiyyatında postmodernist xüsusiyyətlərinin olduğu roman yazarları Oğuz Atay, Orxan Pamuk, Həsən Ali Toptaş, Mətin Kaçan, Lətifə Tekin, Bilgə Karasu, Murad Gülsoy, Əlif Şəfəq, Səma Kaygusuz, İhsanOktay Anar, Sürəyya Evrəndir. Ona görə də, təhlillər bu yazarların bəzilərinin romanları əsasında aparılacaqdır.

Postmodernizm ilk öncə memarlıqda yaranmış olsa da daha sonra incəsənətin bütün sahələrində, eləcə də ədəbiyyatda özünü göstərməyə başlamışdır. Postmodernist üslubda yazılmış əsərlər özündən əvvəl yazılmış ədəbi nümunələrdən özünəməxsus xüsusiyyətlərinə görə fərqlənirdi. Ədəbi cərəyanın nümayəndələri postmodernizmin bütün xüsusiyyətlərini daha çox roman janrında göstərəbilmişdilər. Yeni roman fərqli xüsusiyyətləri ilə ədəbiyyata fərqli düşüncə tərzi gətirdi. Hətta yeni yaranmış nümunələr qeyri-adi quruluşuna görə bir müddət roman adlandırılmamışdır. Nəzərə alsaq ki, türk ədəbiyyatında XX əsrin ikinci yarısına kimi daha çox realistik və romantiküslubda əsərləryazılmışdır, postmodernist üslubda yazılmış romanlar bir müddət qəbul olunmamış və oxunmamışdır. Hətta bu gün də həmin janrda yazılmış əsərləri qəbul etməyən kifayət qədər böyük kütlə vardır.

Bu gün dünya ədəbiyyatında postmodernist yazıçı kimi öz sözünü demiş, Nobel mükafatı lauriyatçısı, türk yazar Orxan Pamuk cərəyanın ən görkəmli nümayəndələrindən biri kimi yeni roman janrında müxtəlif əsərlər yazmış, postmodernist türk roman janrında fərqli iz buraxmışdır.

## Türk ədəbiyyatında postmodernizmdən modernizmə keçid

Məlum məsələdir ki, bir-birini əvəz edən bütün cərəyanlar kimi postmodernizm də modernizmi tənqid edərək yaranmışdır. Bu iki cərəyan nə qədər bir-birindən ayrılsa da postmodernizm nəzəriyyəsinin ilkin açıqlamasını verən alimlərdən biri Lyotard onu “modernizmin bir parçası” adlandırmışdır. O, söyləmişdir ki, əgər bir əsər postmoderndirsə o həm də moderndir. ( J.F. Lyotard, (1994); 155-156) Ona görə də, postmodernist üslubda yazılmış əsərlərdə modernizmin izlərini gör-

*AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
e-mail:ayten.reshidli@gmail.com

mək mümkündür. Bəlkə də məhz bu xüsusiyyət imkan verir ki, türk ədəbiyyatında hər iki cərəyan eyni zamanda formalaşa və ədəbiyyatda özünü göstərə bilmişdir. (Hasan YÜREK, (2008); 200)

Modernizmin əsas obyekti insan olsa da, postmodernizmin obyekti mətndir. Hətta cərəyanın liderlərindən olan Derida onu "Cənab mətn" adlandırmışdır. (Umberto Eko və Postmodernizm fəlsəfəsi. (2012); 41) Postmodernistlər modernistlər kimi keçmişdə yazılmış heç bir mətni məhv etmirlər. Keçmişi təzədən dərk edib, bir mətn üzərində yenisini qururlar.

Postmodernist yazıçı və ya sənətkar filosof mövqeyindədir. Çünki onun yazdığı əsər istər məzmun, istərsə də forma baxımından daha öncə qəlibləşmiş yazı qaydalarına uyğun deyildir. (Quliyev Q., (2012); 276) Postmodernist əsərlərdə düşüncə sərhəddi yoxdur. Hətta buna görə, fəlsəfədə postmodernizm sanki mayedir – bütün fəlsəfələrin üzərinə axır və bütün fəlsəfi cərəyanlarla əməkdaşlıq edir. (Umberto Eko və Postmodernizm fəlsəfəsi.,(2012); 41). Beləliklə, postmodernistlər gələcəyi keçmişin təsiri altında dərk etməyə çalışırlar. Bu plüralist xüsusiyyət yazılmış əsərlərin mətn xüsusiyyətlərinə də ciddi təsir edir. Postmodernist yazı nümunəsini əlinə alan oxucunun əsəri tam dərk etməsi üçün "hazırlıqlı" olmalı, yəni daha öncə çoxlu əsərlər oxumalı və ya intellektual biliyə sahib olmalıdır. Əks halda üzərində dəqiqliklə işlənmiş bu "fəlsəfi əsəri" anlamaqda çətinlik çəkəcəkdir. Bu gün türk ədəbiyyatında yaranmış postmodernist əsərlərə həm Qərb, həm də milli ədəbiyyat nümunələri təsir etmişdir.

XIX əsrdə Tanzimat dövründə mədəni dəyişim ilə əlaqədar əsası qoyulan türk roman janrının dünya ədəbiyyatında yaranma tarixi XVII əsrə qədər gedib çıxırdı. Böyük tarixi yol keçmiş mədəni, sosial-iqtisadi və s. tərəfdən hər gün inkişaf edən Qərb toplumunda roman dəyişimi zəruri idi. Buradan aydın olur ki, dünya ədəbiyyatında üç əsrlik yol keçmiş roman janrında olan bütün dəyişikliklər türk ədəbiyyatında bir əsr ərzində baş vermişdir. Elə bu səbəbdən də türk romanının realizm və romantizmdən postmodernizmə qədər olan keçid yolu o qədər də asan olmamışdır.

XIX əsrin II yarısında qərbləşmənin yeganə yolunun realist, rassionalist düşüncədən keçdiyini düşünən türk ədəbiyyat nümayəndələri fantastik, romantik fikirlərdən uzun illər uzaq olmuşdular. Hətta uzun müddət gerçəkçi ədəbiyyat o qədər çox oxunurdu ki, oxucu kütləsi türk xalq dastanlarından, nağıllardan, miflərdən tamamilə uzaqlaşmışdı. Türk ədəbiyyatında bu gecikmə modernizmin inkişafını ləngitmişdir. XX əsrin II yarısında bu cərəyan bir müddət postmodernizmlə paralel inkişaf etməsinin səbəbi də bununla əlaqədar idi.

Professor Şaban Sağlıq türk ədəbiyyatında postmodernizmin üç halından bəhs edir:

1. Postmodernizmdən izlər və yaxud işarələr
2. "Post"suz postmodernizm və yaxud erkən postmodernizm
3. Postmodernizm dövrü ( Şaban Sağlık; 2017)

Hər üç hal türk romanında özünü göstərmişdir.

Bunlardan birincisi postmodernist izlərin olduğu mətnlərdir. Belə mətnlər əski dövr türk ədəbiyyatından bu günə qədər yazılmış çox əsərdə özünü göstərmişdi. Ona görə də, özündən öncə yaranmış bütün ədəbiyyatı qəbul edən bir çox postmodernist türk romanlarında belə izlər vardır. Məsələn: Postmoderniziminxüsusiyyətlərindən biri olan metamətn ("metafiction")* Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanında özünü göstərir. Romanın sonuna yaxın, yəni V fəslində baş qəhrəman Fəridə belə deyir: "Bu oxumayacağındefteriben senin için yazdım, Kamran. Evet, ne söğledim, ne yazdımsa hepsi senin içindi". (R. N. Güntekin, (2017); 325) Bu fəsildən sonra hadisələr III şəxsin dilindən nəql olunmağa başlayır. Belə ki, oxucu romanı iki şəxsin dilindən mütaliə edir. Birincisi

*Metamətn – nəsr içərisində nəsr deməkdir. Aşağıda ətraflı məlumat verilmişdir.

günlüyü yazan Fəridə, ikincisi isə həmin günlüyü tapıb hadisələrin sonrakı axışını qələmə alan yazardır. Bu metamətn xüsusiyyət postmodernist ədəbiyyatda da özünü göstərir. Buna qarşılıq postmodernist yazarlardan olan, həyat hekayəsi içərisində başqa bir həyat hadisəsi yazmış Orxan Pamukun "Məsumiyyət Muzeyi" əsərini nümunə olaraq göstərmək olar. Burada məhəbbət hekayəsi əsas qəhrəman Kamalın dilindən nəql olunur. Ancaq bu sevgi hekayəsinin nəqlindən sonra oxucu davamı olaraq başqa bir hekayə - "Məsumiyyət Muzeyi"nin yaradılması ilə qarşılaşır.

Postmodernizmin ikinci halı – ""Post"suz postmodernizm" ədəbiyyatda postmodernist əsər yazdıqlarının fərqində olmayan yazarlardır. Bunlardan Oğuz Atay yaradıcılığını nümunə gətirmək olar. Həm postmodernist, həm də modernist yazıçı olan Oğuz Atay hələ 1971-ci ildə "Tutunamayanlar" romanını yazmışdır ki, bu roman postmodernist bütün xüsusiyyətləri özündə əks etdirir. Ancaq yazıb-yaratdığı dövrü də nəzərdən keçirsək bizə aydın olur ki, yazıçı postmodernist əsər yazdığından xəbərsizdir.

Üçüncü hal – "Postmodernizm dövrü"ndə yazıb-yaradan yazıçılar isə necə bir əsər yazdıqlarınınfərqindədirlər. Məsələn, Orxan Pamuk, Elif Şəfəq vəs. bilərəkdən, postmodernist yazıya uyğun ədəbi əsərlər yazırlar. Hətta qərb ədəbiyyatında postmodernist üslubda yazılmış ədəbi mətnlərin üzərində öz əsərlərini yaradırlar. Orxan Pamuk "Mənim adım qırmızıdır" romanını struktur olaraq qərb ədəbiyyatının görkəmli postmodernistyazarıUmbertoEkonun "Qızılgülün adı" romanı əsasında yazması buna nümunə ola bilər.

## Türk romanlarında postmodernist xüsusiyyətlər

Klassik roman janrında yazılmış əsərləri oxuyarkən aydın olur ki, həmin romanlarda zaman, məkan anlayışı olduqca önəmlidir. Ancaq postmodern romanlarda bu bir qədər fərqlidir. Postmodernist əsərlərdə məkan və zaman anlayışının itməsi onların təhlil istiqamətini tamamilə dəyişmişdir. Artıq ədəbiyyata yeni anlayışlar daxil olmuşdur. Metamətn və intertekstuallıq buna nümunədir. Ona görə də, türk romanlarında postmodernizmin izlərini yalnız bu iki anlayışın romanlardakı inikası ilə açmaq mümkündür.

## Türk romanlarında metamətn

Postmodern roman yazan yazıçı ilə oxucunun arasındakı əlaqənin qurulması və nəticədə oxucunun əsərin qurama olduğunu anlaması hadisəsi metamətn adlanır. Belə ki, hekayənin içərisində bir başqa bir hekayədən bəhs olunur. Başqa şəkildə ifadə etsək, yazıçı sanki "əsərin içərisində əsər" ("kurmaca içerisinde kurmaca") yazır. (Aytaç, G. (2003); 247)

Postmodernist əsərləri nəzərdən keçirən oxucu onun parçalanmış təhkiyələrdən ibarət olduğunu görür. Həmin təhkiyələr birləşərək bütövlük təşkil edir. Ancaq bu bütövlüyü yaradan bir başqa qüvvə vardır. Bu müəllif maskasıdır. Postmodern əsəri oxuyan oxucu müəllifin varlığını ənənəvi romanlardan fərqli olaraq daha çox hiss edir. Müəllif oxucu ilə gizli kontakta keçir. Postmodernist tənqidçi Malmqrenin fikrincə, yazıçı metamətn vasitəsi ilə əsərlə oxucu arasında ünsiyyət yaradır. Beləliklə, yazıçı əsərin bədii məkanını genişləndirir və saysız-hesabsız fikirlərini bir romana sığışdıra bilir. (Quliyev Q., (2012); 263)

Romanlarında postmodernist xüsusiyyətlərin zəngin olduğu Əhməd Altanın "Təhlükəli oyunlar" romanının ilk səhifəsindən yazıçının yaratdığı metamətn hiss olur. Belə ki, "Romanı bir cinayet tasarlar gibi tasarladım..." sözləri ilə başlayan yazıçı daha sonra bu cümlələri yazır:

*"Bu kitabın benim açımda nöbürlerinden daha değişik olmasının nedeni, her zaman benkurbanımı bulduğum halde, bu kez kurbanımın benibulması, romanın yazılmaküzere bana gelmesiydi.*

*Bir başkası için o, koyurenk güneşgözlükleri takmış, siyah kazaklı, içindekızil pırıltılar oynaşan gür saçları olan genç bir kızdı; benimiçinse ısrarlı birkaç telefondan sonra gelen bir romandı. Kız bir romana girmek istediğini biliyordu, bilmediğiise bu romandan nası lçıkacağıydı, onu yalnızca ben-biliyordum· ve ona asla söylemeyecektim, zatensöylemedim de". (*AhmetAltan, (1997); 7-8.*)*

Yazıçı əsərin ilk səhifələrindən başlayaraq oxucusunu öz yazı masasına dəvət edir. Göründüyü kimi, Əhməd Altanın bu romanının əsas qəhrəmanı özüdür və oxucu ilə birbaşa əlaqəyə girir. Romanın əvvəlindən sonuna kimi romanın necə yazıldığı oxucunun gözləri önündə canlanır. Yazıçının avtobioqrafik hesab olunan bu romanında eyni vaxta iki qadına olan məhəbbətindən yazır. Həm cinayət, həm də sevgi münasibətini bir araya gətirərək romanına köçürən Əhməd Altan əsl postmodern üslubda əsər yaratmışdır.

Başqa bir metamətnə nümunə Orxan Pamukun "Qara kitab" romanını göstərmək olar. Romanda Qalibin sevdiyi qadın Röyanı İstanbulda axtarması ilə Cəlalın "Milliyyət" qəzetində yazdığı köşə yazıları iç-içə qurulmuş mətnlərdir. Yazıçı üst mətnlə iç mətni birləşdirmiş və beləliklə, bütöv bir roman yaratmışdır.

Əlif Şəfəqin "Eşq" romanındakı (2009) hadisələr tarixi-xronoloji baxımdan bir-birindən səkkiz əsr aralı iki zaman kəsiyində baş versə də, yazıçı burada bütövlük yarada bilmişdir. Biri Türkiyədə, digəri Amerikada yaşayan, biri müsəlman, digəri yəhudi iki ailənin həyatı əsər boyu paralel təqdim olunur. Postmodern üsul və texnika sayəsində bu təqdimat o qədər ustalıqla həyata keçirilir ki, oxucu XXI əsrdən XIII əsrə geri dönüşləri (Şəms Təbrizi və Cəlaləddin Ruminin yaşadığı zamana), tarixiliklə müasirlik arasındakı keçidi, məntiqi ardıcıllığı bütöv mətn kimi qəbul edir. Göründüyü kimi, əsər postmodernist üslubda – "mətn içində mətn" şəklində qələmə alınmışdır.

**Postmodern romanlarda intertekstuallıq**

İntertekstuallıq bir termin kimi ədəbiyyata XIX əsrin 60-cı illərində Yuliya Kristeva tərəfindən daxil edilmişdir. O, ilk dəfə intertekstuallıq haqqında "Söz, dialoq və roman", daha sonra isə "Sərhədsiz mətn" əsərlərində məlumat yazmışdır.

İntertekstuallıq iki və daha artıq mətn arasındakı əlaqəni öyrənən metoddur. Postmodernistlərin fikrincə, hər mətn əvvəlkilərdən törəmədir, yəni bütün sözlər deyilmişdir, yeni nə isə yaratmaq artıq mümkünsüzdür. Mümkün olan isə var olana fərqli bucaqdan baxışdır. Ona görə də, postmodern romanlarda keçmişin təqlidi vardır.

Postmodernist yazarlar bəzən müxtəlif mətnlərin yazı formatını bütünlüklə, yaxud müəyyən qismini öz mətninə yerləşdirir (pastiş), bəzən bir başqa romanın əsas məzmununu öz əsərinə köçürür (parodiya), bəzən isə bir əsəri götürüb oxucunu əyləndirmək məqsədi ilə onu yenidən yazır (palimpsest). İntertekstuallıq postmodernist mətnlərdə bu üç kateqoriyada özünü göstərir. Məsələn, Orxan Pamuk Umberto Ekonun "Qızılgülün adı" əsərini parodiya edərək "Mənim adım qırmızıdır" əsərini yaratmışdır. Belə ki, hər iki əsər əsrlər əvvəl baş vermiş hadisələrdən bəhs edir. Hər iki əsərdə də dedektivlik vardır. "Qızılgülün adı" əsərində baş vermiş cinayəti açmağa çalışan qəhrəman Baskervillerli Uilyamdırsa, "Mənim adım qırmızıdır" romanında Qara obrazıdır. İki romanda da aksion, fəlsəfi/estetik məsələlər, gərginlik oxucunu dərin düşünməyə vadar edir və sanki labirintə salır. Oxucu isə öz növbəsində həmin labirintdən "qurtulmağa" çalışır.

İhsan Oqtay Anar "Suskunlar" romanında "İncil", "Tövrat", "Qurani Kərim"də olan mətnlərdən sıx-sıx istifadə edərək əsərinin məzmununu daha da zənginləşdirmişdir.(Ayşe Melda Üner, (2010); 196-206)

Beləliklə, göründüyü kimi, XX əsrin yetmişinci illərindən başlayaraq türk ədəbiyyatında modernist və postmodernist yazılar paralel olaraq meydana gəlmişdir. Daha sonralar postmodernizm türk ədəbiyyatında geniş yayılmış, modernizmdən ayrılmış, hətta elə həddə çatmışdır ki, həmin ədəbiyyatın görkəmli nümayəndələrindən biri olan Orxan Pamuk yazdığı romanları ilə Nobel mükafatına layiq görülmüşdür. Məqalədən də aydın olduğu kimi, cərəyan türk ədəbiyyatında bütün xüsusiyyətləri ilə təşəkkül tapmışdır.

## ƏDƏBİYYAT


1. Ahmet Altan, (1997). "Tehlikeli Masallar", İstanbul: Can Yayınları, 256s.
2. Ayşe Melda Üner, (Haziran 2010). "Metinler ve metinlerarası okuma: Suskunlar", Balıkesir Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Cilt 13, Sayı 23. ss.196-206
3. Aytaç, G. (2003) GenelEdebiyat Bilimi, (2. Baskı), İstanbul: Say Yayınları, 272 s.
4. Elif Şafak, (2009). "Aşk" romanı, Doğan Kitap, 378s.
5. Hasan Yürek, (2008). "Türk Romanında Modernist EtkininBoyutları", Gazi Eğitim Fakültesi Dergisi, Cilt 28, Sayı 1, 187-202 s.
6. J.F. Lyotard, (1994). "Postmodern durum", tərcüman: Ahmet Çiğdem, Vadi Yayınları, 159s.
7. Oğuz Atay, (2000). "Tutunamayanlar", İstanbul, İletişimYayıncılık, 724s.
8. Orhan Pamuk, (1998). "Benim adım Kırmızıdır", İstanbul, İletişimyayınları, 470 s.
9. Prof. Dr. Şaban Sağlık, "Postmodernizmin modern türk edebiyatındaki üç hali", makale, SosyalBilimler -2, Özel sayı, cilt -1, 2017
10. Quliyev Q. (2012). "XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları", Bakı, 344 səh.
11. Reşad Nuri Güntekin, (2017). "Çalıkuşu", İstanbul, İnkilap kitab evi Yayın Sanayeveticaret, s.325
12. Umberto Eko və Postmodernizm fəlsəfəsi.(2012). Bakı, Qanun Nəşriyyatı, 204 səh.



***Резюме***

***Айтен Рашидли***

***Формирование постмодернистского турецкого романа***

***Ключевыеслова:*** *постмодернизм, роман, турецкаялитература*

В первой половине 20-го века, пытаясь создать мир, ориентированный на человека, модернизм, который считался самым ценным активом мира, недолго существовал в обществе капитализма. Поскольку больше модернизма на Западе находится в центре обеих мировых войн, оно не могло развиваться в капиталистическом обществе, где человеческие ценности были разрушительными. Модернизм, возникший в узком географическом районе, был заменен постмодернизмом, который известен своими критическими и просветительскими аспектами. Таким образом, модернизм появился в турецкой литературе во второй половине XX века и развивался параллельно с постмодернизмом. Вот почему некоторые из современных авторов имеют произведения модернизма и постмодернизма одновременно. В статье рассматриваются постмодернистские особенности турецких романов по мотивам романов основных представителей современности.

**_Summary_**

**_Ayten Reshidli_**

**_The formation of the postmodern Turkish novel_**

***Keywords:*** *Postmodernism, novel, Turkishliterature*

Modernism, which considered mankind the most valuable asset of the world and tried to create a human-centered world in the first half of the 20th century, did not last long in capitalist society. Because occidental modernism could not develop in an area where was the center of the both world wars, and in a capitalist society in which human values were destructive. Modernism, which has emerged in a narrow geographical area, has been replaced by postmodernism, which is known for critical and enlightening aspects. In the Turkish literature this process has shown itself quite differently. Thus, modernism emerged in Turkish literature in the second half of the twentieth century and developed in parallel with postmodernism. That is why some of the contemporary authors have modernist and postmodernist works at the same time. The article deals with the postmodern features of the Turkish novel, based on the novels of the main representatives of modern period.